


# Ötən hər gün bizi COP29-a yaxınlaşdırır

## Tədbirin yüksək səviyyədə keçirilməsi üçün bütün imkanlar səfərbər olunub

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) işə başlayacağı vaxta yeddi ay qalsa da, Azərbaycan xeyli zamandır tədbirin yüksək səviyyədə keçirilməsi üçün hazırlıq görür. Səbəbi aydındır - həm ortada sessiyanın qlobal xarakter daşıması, həm də ölkəmizin təşkilati cəhətdən imici var.**

Artıq COP29-un loqosu da hazırdır. Loqoda buta, yarpaq və su damlası simvollarının sintezinə dayanaraq təbii resursların əhəmiyyəti kontekstində ekoloji həssaslığa və Azərbaycanın zəngin mədəni irsinə xitab edilib. Buta özündə davamlılıq və innovasiyanı ehtiva etməklə yanaşı, həm də keçmişlə gələcək arasında körpü rolunu oynayır. İllüstrativ su damlaları şəklində olan butalar özündə beş fərqli elementi - flora və fauna, hava və külək, su, enerji və kainatı birləşdirir. Loqo, habelə iqlim çağırışlarının yüksəldiyi dövrdə bəşəriyyət və ətraf mühit arasında kəsintisiz əlaqənin, ekoloji cəhətdən həssas davranışın əhəmiyyətini əks etdirir.

COP29 Bakı Olimpiya Stadionunda keçiriləcək. Bu da tədbirin iştirakçı sayına görədir. Onu da qeyd edək ki, məkanla bağlı qərar BMT ilə məsləhətləşmələr və əvvəlki COP tədbirlərinin təcrübəsi nəzərə alınaraq qəbul olunub. İndiyədək Olimpiya Stadionunda keçirilən irimiqyaslı tədbirlərdə infrastrukturun effektiv istifadəsi və dayanıqlılığı tam təmin edilib. COP29 zamanı təşkil olunacaq göy və yaşıl zonalar stadion ərazisində kompakt şəkildə təşkilat komandası ilə koordinasiyalı şəkildə hazırlanacaq. Konfransın bütün plenar sessiyalarının vahid məkanda təşkili üçün stadion ətrafında konstruksiyalar quraşdırılacaq.

Tədbirə hazırlıqlarla bağlı görülən işlərdən biri də COP29-un veb-saytının hazırlanmasıdır. Saytın tezliklə istifadəyə verilməsi gözlənilir. Bundan başqa, ötən müddətdə bir çox ölkələrə səfərlər edilib, COP-la bağlı təcrübə toplanılıb, müzakirələr aparılıb.

Bu səviyyədə tədbirin ölkəmizdə keçirilməsinə qərar verilməsi Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın ekologiya sahəsində həyata keçirdiyi siyasətə, o cümlədən iqlim dəyişikliyi probleminin həllinə töhfə vermək səylərinə beynəlxalq ictimaiyyətin etimadının təsdiqidir. Xoş olan məqamlardan biri də odur ki, COP29 zamanı Azərbaycan sözügedən sahədə özünün müsbət tərəflərini nümayiş etdirəcək və bu istiqamət üzrə yaxın onilliyə hesablanmış yeni siyasətin formalaşdırılması üçün əlverişli imkanlar qazanacaq. COP29 həm də Azərbaycan həqiqətlərinin və reallıqlarının dünyaya çatdırılması baxımından real fürsət olacaq.

Bu və digər məsələlər barədə COP29-un Baş Qərargahında ilk dəfə keçirilən mətbuat konfransında da danışılıb. Konfransda Azərbaycanın iqlim dəyişikliyinin fəsadları ilə üzləşdiyi vurğulanıb, o cümlədən çaylarda və Xəzər dənizində suyun azalması, səhralaşma kimi problemlərdən söz açılıb. Bildirilib ki, Azərbaycan COP29-a evsahibliyi çərçivəsində bütün iştirakçı tərəflərlə danışıqlar prosesinə şəffaflıq və neytrallıq prizmasından yanaşır. Hazırlıqlar fonunda COP29-un danışıqlarının əsas mövzuları, o cümlədən iqlim maliyyələşməsi bütün tərəflərlə əhatəli şəkildə müzakirə olunur. Vurğulanıb ki, Azərbaycanın rolu sadəcə evsahibliyi mandatı ilə məhdudlaşmayacaq, ölkəmiz konfransdakı danışıqlara da rəhbərlik edəcək. Odur ki, danışıqların uğurlu nəticələnməsi üçün mümkün həll yolları üzərində fəal iş aparılır. Çünki bu beynəlxalq tədbir "yaşıl enerji"yə keçidin sürətləndirilməsi üçün geniş müzakirə və fəaliyyət platforması olacaq.

COP29-la bağlı Azərbaycandan böyük gözləntilər var. Ona görə də həm hazırlıq prosesinin, həm də tədbirin özünün yüksək səviyyədə təşkili üçün cəmiyyətin müxtəlif təbəqələri, o cümlədən qeyri-hökumət və gənclər təşkilatları səfərbər olunub. Bir müddət əvvəl Prezidentin sərəncamı ilə Təşkilat Komitəsinin tərkibi genişləndirilib və bununla gender balansı tam təmin olunub. COP29-da müasir çağırışların və texnoloji məsələlərin geniş müzakirə olunacağını nəzərə alsaq, Təşkilat Komitəsində iqtisadiyyat və innovasiya sahəsində çalışan şəxslərin də təmsil olunması müsbət addımdır.

Yeri gəlmişkən onu da qeyd edək ki, Prezident İlham Əliyev COP29-a hazırlıq işlərinə xüsusi həssaslıqla yanaşır və tədbirin ən yüksək səviyyədə keçirilməsi üçün prosesi birbaşa izləyir, vaxtaşırı məlumatlar alır və lazım olan tədbirləri görür. Çünki dövlət başçısının təbirincə desək, COP29-un bir önəmi də ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunub. Bu da o deməkdir ki, bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə edib: "Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 18 aprel, № 77.- S.9.